# Görkəmli şəxsiyyətlər Xurşidbanu Natəvan haqqında

Xurşidbanu Natəvanın parlaq bədii istedada malik söz sənətkarı kimi ədəbiyyatımız tarixində özünəməxsus layiqli yeri vardır. Klassik ədəbi ənənələrimizi yaşadan, yüksək humanizm ideyaları, dərin lirizm ifadə edən yaradıcılığı və unikal şəxsiyyəti sayəsində Natəvan dövrün ədəbi mühitinin formalaşmasına mühüm təsir göstərərək xalqımızın mədəni irsinin zənginləşməsinə töhfələr vermiş, dolğun ictimai fəaliyyəti ilə tanınmışdır.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Xüsusən Qarabağ şairləri nəhəng qartallar kimi Şuşa dağlarının poetik zirvəsində məskən salaraq, öz fövqlərindən poeziyaya ton vermişlər. Xurşidbanu Natəvan da bu şairlərdəndir.

**Firidun bəy Köçərli,**
**görkəmli Azərbaycan maarifçisi**

Xurşidbanu Natəvanın insana məhəbbət, həqiqətə inam və xeyirxah əməllərə ümid dolu poeziyası həmişə təzədir. Onun şeirləri öz mayasını, qaynaqlarını təbiətin munis gözəlliklərindən, baharın həyat qoxulayıcı nəfəsindən, torpağın ətrindən götürmüşdür.

**Məsud Əlioğlu,**
**filologiya elmləri doktoru**

Xurşidbanu Natəvan ədəbiyyatımızın rövnəqlənməsində, təsir və nüfuz dairəsinin genişlənməsində mühüm rol oynamış, mənəvi xəzinəmizin ətirli gül-çiçəyi hesab olunmuşdur.

**Şamil Qurbanov,**
**professor**

Natəvan talantlı, həssas, lirik şairə olub, Füzuli məktəbinin layiqli davamçısıdır.

**Səməd Vurğun,**
**Xalq şairi**

Xurşidbanu Natəvan ürəyi Vətən və xalq məhəbbəti ilə döyünən, xalqın rifahı və mənafeyi yolunda hər cür çətinliklərə dözən və bu yolda yorulmaq bilməyən şairədir.

**İlyas Əfəndiyev,**
**Xalq yazıçısı**

Hərgah Şuşanı bir taca bənzətmək mümkünsə, Natəvan onun ən parlaq daşlarından biridir.

**Məmməd Rahim,**
**Xalq şairi**

XIX əsrin ikinci yarısında Qarabağın böyük Cavanşirlər nəslindən olan Xurşidbanu Natəvan yaşayıb-yaradıb və həm insanlığı, həm düşüncələri, həm də özünəməxsus dərdləri ilə xalqın yaddaşında əbədiləşib. İnsan qəlbinin zərif və mürəkkəb hisslərini qəzəllərində dolğunluqla əks etdirən Natəvanı olduğu kimi təsdiq edə bilməsək də keçən yüzilliklərdən gözəl Natəvanın səsi, nəfəsi duuyulur. O, ən çox sevilən, ən çox mübahisələrə səbəb olan, lakin həyat və yaradıcılığının öyrənilməsi vacib sayılan sənətkarlardan biridir.

**Cəmil Tağıyev**
**araşdırmaçı**

Natəvan elə bir şəxsiyyət idi ki, onun heç bir digər fəailiyyəti olmasaydı belə, xalqın yaddaşında yaşaması üçün zərif, kədərli poetik irsi kifayət idi. Və ya şairliyi, poeziyası olmasa idi, gördüyü çox böyük xeyirxah əməllər onu yaşadacaqdı.

**Vasif Süleyman**
**şair**

Çətin situasiyalarda ağıllı qərarlar vermək, vəziyyəti uğurla dəyərləndirmək, yeri gələndə özündən "güclülər"lə mücadilə aparmaq, yaşadığı ağır həyat ona dolğunluq və yetkinlik gətirib və adının Qarabağ tarixində bir şəxsiyyət kimi əbədi qalmasına səbəb olub. Natəvan "Xan qızı" el anası statusu da qazandırıb və ömrünün sonuna qədər hər ikisini böyük məsuliyyət və ləyaqətlə daşıyıb.

**Aygün Bağırlı**
**filologiya üzrə fəlsəfə doktoru**

Həzin, səmimi lirika, təbiət gözəlliklərinin və insanın könül dünyasının bəzən gerçək, bəzən isə romantik, təsirli poetik vasitələrlə təsviri Xurşidbanu Natəvan yaradıcılığının başlıca özəlliklərindəndir. Natəvanın əsərləri bədii sənətkarlıq baxımından kamil şeir nümunələridir.

**Zaman Əsgərli,**
**professor**

Natəvanın təbiət gözəllikləri mövzusunda yazdığı şeirlər nikbin əhvali-ruhiyyə oyatmaqla bərabər, təbiətdəki ülviyyəti duymağı, sevməyi tərbiyə edir və həyatın mənasını aydınlaşdırmaqda oxucuya yardım göstərir.

**Bəylər Məmmədov,**
**ədəbiyyatşünas**

Füzuliyanə şeirlər yazmaqla fəxr edən Natəvan öz əsərlərində insani duyğuları, həyat və məhəbbəti yanıqlı dil və gözəl üslubla realistcəsinə əks etdirmişdir.

**Fikrət Seyidov,**
**filologiya elmləri namizədi**